

*Ülkər Hüseynli*

## DƏLİSOV SEVGİ

Qıvırcıq dalğalı çılğın başıyla,
Qumsalın köksünə yaslanır dəniz.
Süzülüb getdikcə göy ləpə gözlər,
Sevdiyi sahilə nazlanır dəniz.

Siz ey çalxalanan köpük qədəhlər!
Çınqıla çırpılıb çingildəyirsiz,
Bəlkə, nəhayətsiz qızıl qumlara,
Əbədi bir eşqlə sağlıq deyirsiz.

Duzlu dodaqların bal öpüşüylə,
Bəzənən sahillər necə sevincək!
Dənizin köksündən qopan hər zərrə,
Sevgiylə çırpınan, sanki, min ürək!

Dənizin dəlisov ehtirasıyla,
Sarmaşır sahillə zərrin dalğalar.
Milyon illərdir ki, sevgiyə şahid,
Günəş, Ay, narın qum, ağ qağayılar.

## ƏGƏR ŞAİR OLSAYDIM...

***Murathan Munqanın "Ben bir şair olsaydım eğer!" şeirinə***

Əgər şair olsaydım,
Misra-misra öpərdim ruhunu,
Elə bir həsrətlə ki
Gözün dolurdu.
Sətirlərə bağışlamağa
Qısqanardım adını,
Duyğularım alışardı,
Kəlmələr kül olurdu.
Əgər şair olsaydım,
Şəninə bir şeir yazardım,
Sözlərdə ürəyimin
Əzabları döyünərdi,
Bir-birinə zəncirlənmiş hərflər,
Eşqimin yollarında,
Arxanca kölətək,
Dizin-dizin sürünərdi.
Bir şeir yazardım ki,
Hər nöqtəsində,
Sənsiz, həyatımın
Nöqtələndiyini görərdin.
Bəlkə, bir şeir xatirinə
Qıymazdın mənə, sevdiyim,
Bulud gözlərimin,
Leysan yağışını silərdin.
Əgər şair olsaydım...

## SON DÖYÜŞ İSTƏYİRƏM!

Neçə ildir sinəmiz güllədən dəlik-deşik,
Böyüdülər körpələr görmədən qundaq, beşik.
Viran qaldı yurdumuz, talan oldu ev-eşik,
Körpələrin gözündə mən gülüş istəyirəm!
Əbədi sülh naminə son döyüş istəyirəm!

Qalxın boğaq düşməni lənətlənmiş qanında,
Yatmış aslan oyansın bu millətin canında,
Haqq-hesabı sorulsun keçmişin, yarının da,
Ətalətdən çıxmağa bir dönüş istəyirəm!
Qeyrət, namus adına son döyüş istəyirəm!

Körpə şəhidlər gördük əli, ayağı bağlı,
Güllələrdən gül açmış alınları yanıqlı,
Fəryadlar ərşə çıxdı, köksümüz dağlı-dağlı,
Düşmənləri önümdə diz çökmüş istəyirəm!
Xocalı sevgisilə son döyüş istəyirəm!

Nə qədər həsrət qalım Kəlbəcərə, Laçına?
Axı nə qədər salım bu ağrını içimə?
Hayqırıram elimin igidinə, gəncinə,
Şuşa, Göyçə, Təbrizlə mən görüş istəyirəm!
Bütöv vətən uğrunda son döyüş istəyirəm!

"Vətən eşqi imandan"[1],-öyrədildi bizlərə,
Babalarım bu yolda baş qoydu milyon kərə,
Sərgərdandır ruhları, dinclik tapmayır hələ,
Tezliklə cəlladları gömülmüş istəyirəm!
Ataların ruhuna son döyüş istəyirəm!

Müqəddəsdir bu yurdun çiçəyi, suyu, daşı,
Qədimdir özü qədər dərdlərinin də yaşı,
Tarixdə ucalıqdır, şəhidlikdir yaddaşı,
Tarix yatan torpağa min öpüş istəyirəm!
Azərbaycan eşqinə son döyüş istəyirəm!

Nə qədər eşitmişik yalan vədi, sözləri,
Həqiqətə açılmır dünyanın kor gözləri,
Səbirdən keçdi daha, tükətdilər bizləri,
Türkün əzəl yurduna tez dönüş istəyirəm!
Qələbə şərəfinə son döyüş istəyirəm!
Qələbə şərəfinə son döyüş istəyirəm!

**1."Vətəni sevmək imandandır"**
**(Hədisi-şərif)**

## İçəri şəhər

Bir şəhər var ürəyimin lap içində -
dibində Səbayıl yatan köpüklü dəniz yaxası.
Bir ucunda sirləri çözülməyən,
Ağayana duruşlu, möhtəşəm Qız qalası.
Daş döşəməli, əyri-üyrü dalanları,
Heç zaman görmədiyim əcdadlarımın,
Ruhu ilə məni tanışdıran,
Mazğallı, qalın divarları.
Bu divarlar önündə düşmənin başını üzən,
Qeyrətli babalarımın duyduğum nəfəsləri.
Dar küçələri ilə addımladıqca,
Tarixin mübhəm döngələrindən eşitdiyim,
Doğmalarımın anlamadığım səsləri.
Əzəldən İlahi eşqə tutuşanların,
Minarələrdən ucalan "Allahu Əkbər" sədaları.
Bir də müasir dünyanın,
Özünü bu məhrəmlik içərisinə dürtmüş,
Ürək ağrıdan, yad, əcnəbi binaları.
Ayağımı basdığım anda,
izahı olmayan səbəblərdən,
Qəlbimdə doğan sevinc,
boğazımda düyünlənən qəhər.
İçində heç zaman yaşamadığım,
İçimdə əbədi yaşayan sevgim - İçəri şəhər.

## KAŞ

Kaş qəlb sındıranda, yalan deyəndə,
Dillər lal olaydı, danışmayaydı.
İnsan seçimində yanılmayaydı,
Kaş halal harama qarışmayaydı.

Sevən hər sınaqdan kaş çıxa bilə,
Boyun nəfsə deyil, haqqa əyilə.
Xəyanət yolunu aza, itirə,
Könüllər həsrətdən alışmayaydı.

Namərdin içində vicdanı yatıb,
Həyanı, düzlüyü biryolluq atıb,
Bəndə pak ruhunu İblisə satıb,
Haqsızlıq görəndə barışmayaydı.

Aşiqlər gözündə kaş yaş olmaya,
Tikan gül bağrına sirdaş olmaya,
Güvəndiklərindən çıxdaş olmaya,
Ürəklər itkiyə alışmayaydı.

Ədalət.-2018.-21 aprel.-S.16.